AZƏRBAYCAN RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ

Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün keçirilən müsabiqədə iştirak edən namizədin

# YADDAŞ KİTABÇASI

BAKI - 2026

## Hörmətli namizəd!

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi xüsusi icra məmuru olmaq istəyinizi təşviq edir və Sizə uğurlar arzulayır.

Məqsədimiz Sizə imtahanlarda biliklərinizi nümayiş etdirmək üçün əlverişli şərait yaratmaqdan və obyektivliyi təmin etməkdən ibarətdir.

Siz imtahanda uğur qazanmaq üçün yüksək bilik nümayiş etdirməklə yanaşı, yaddaş kitabçasında göstərilənləri mütləq bilməli və imtahanın keçirilmə qaydalarına əməl etməlisiniz.

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

## Namizədin mütləq bilməli olduğu məsələlər

### 1. Namizədin imtahanqabağı vəzifələri

1.1. Namizəd imtahanın başlanması vaxtından azı 1 saat əvvəl imtahan keçiriləcək ünvanda olmalı, şəxsiyyətini təsdiq edən sənədin əslini (şəxsiyyət vəsiqəsi, müvəqqəti şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu) mütləq təqdim etməlidir.

**Diqqət!**

Göstərilən sənədlərdən hər hansı biri olmadıqda və ya sənəd etibarsız olduqda namizəd imtahana buraxılmır.

1.2. Namizəd imtahan keçiriləcək binanın girişində şəxsiyyətini təsdiq edən sənədi təqdim etməklə qeydiyyatdan keçir və təyin edilən zalda aidiyyəti kompüterin qarşısında əyləşərək nəzarətçinin izahatını diqqətlə dinləyir. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün 15 dəqiqə vaxt verilir. Aydın olmayan məsələlər barəsində nəzarətçiyə müraciət etmək olar.

### 2. Test imtahanı

2.1. Namizəd test imtahanı suallarına kompüterdə yerləşdirilmiş xüsusi proqram təminatı vasitəsi ilə cavab verir. İmtahanın başlanması vaxtı sualların monitorda göründüyü andan hesablanır.

2.2. İmtahan 3 (üç) saat müddətində fasilə verilmədən keçirilir. İmtahanın başa çatacağı vaxt elan edilir.

2.3. Test tapşırıqlarını istənilən ardıcıllıqla cavablandırmaq olar.

2.4. Namizəd imtahanda köməkçi vasitə kimi yalnız qələmdən və Müsabiqə Komissiyası tərəfindən verilən xüsusi formalı qeyd vərəqindən istifadə edə bilər.

**Diqqət!**

Qanunvericilik sahəsi, ümumi bilik səviyyəsi və dünyagörüşü üzrə hər suala verilmiş dörd cavabın (A, B, C, D) və məntiq üzrə beş cavabın (A, B, C, D, E) hər birini oxuyun. Bu cavablardan yalnız biri düzgündür. Düzgün hesab etdiyiniz yalnız bir cavabı seçin və işarələyin.

İmtahanda xüsusi icra məmurunun fəaliyyətində tətbiq olunan qanunvericiliyə dair hər bir sualın düzgün cavabı 1 balla qiymətləndirilir (cəmi 60 mümkün bal).

Namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən edən 40 sualın hər birinin düzgün cavabı 0,5 balla qiymətləndirilir (cəmi 20 mümkün bal).

Səhv cavablar və ya sualın cavabsız qoyulması "0" bala bərabər tutulur və digər cavablara təsir göstərmir.

2.5. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda o, imtahanın nəticələrinə dair arayış əldə edir.

2.6. Namizəd istənilən səbəbdən imtahandan vaxtından əvvəl çıxdıqda və ya imtahan qurtardıqda

köməkçi vasitə olan xüsusi formalı qeyd vərəqini nəzarətçiyə şəxsən təhvil verərək zalı və inzibati binanı tərk edir.

2.7. İmtahanın nəticələri Ədliyyə Nazirliyinin və Xüsusi İcra Məmurları Palatasının rəsmi internet səhifələrində **(www.justice.gov.az)** yerləşdirilir.

2.8. Texniki səbəblərdən imtahanın davam etdirilməsi mümkün olmadıqda Müsabiqə Komissiyası tərəfindən müəyyən edilmiş vaxtda imtahanın yenidən keçirilməsi barədə namizədə məlumat verilir.

2.9. "Xüsusi icra məmuru olmaq istəyən şəxslərlə keçirilən test imtahanında kompüterdən istifadəyə dair təlimat" Ədliyyə Nazirliyinin və Xüsusi İcra Məmurları Palatasının rəsmi internet səhifələrində və namizədlərin elektron kabinetində yerləşdirilir.

## 3. Müsahibə

3.1. Test imtahanından keçid balı toplamış namizədlərlə müsahibə keçirilir.

3.2. Müsahibənin keçirildiyi yer və vaxt barədə namizədlərə Komissiya tərəfindən əvvəlcədən məlumat verilir.

3.3. Namizəd müsahibəyə gələrkən şəxsiyyət vəsiqəsini gətirməlidir.

3.4. Müsahibə fərdi qaydada, aşkarlıq şəraitində Müsabiqə Komissiyasının üzvləri qarşısında keçirilir.

3.5. Müsahibə fərdi qaydada və 30 dəqiqəyədək aparılır. Müsahibə zamanı hər namizədə 5 sual

verilir və namizədin aşağıdakı xüsusiyyətləri qiymətləndirilir:

3.5.1. xüsusi icra məmurunun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını tətbiq etmək sahəsində biliyi və bacarığı, o cümlədən təhsil səviyyəsi, peşə nailiyyətləri, xarici dilləri bilməsi, kompüterdə işləmək bacarığı və səviyyəsi;

3.5.2. özünü təqdimetmə bacarığı, ümumi dünyagörüşü, ünsiyyət bacarıqları, təmkinliliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti;

3.5.3. analitik düşünmək qabiliyyəti, hadisələri obyektiv qiymətləndirmək və problemlərin həlli ilə bağlı qərar çıxarmaq bacarığı.

## 4. Namizədə qadağandır:

4.1. Saxta sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək

4.2. İmtahan keçirilən zala mobil telefon və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, elektron məlumat kitabçası və daşıyıcısı, konspekt və ədəbiyyat, məlumat və qeydiyyat kitabçası, çanta, portfel, xarici yaddaş qurğusu və digər yardımçı vəsaitlər gətirmək və onlardan istifadə etmək;

4.3. Yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər növ əşyalarla imtahan binasına girmək, özü

ilə yemək, içmək (şəffaf plastik qabda qazsız, içməli su istisna olmaqla), saqqız, siqaret gətirmək;

4.4. Sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;

4.5. Nizam-intizamı pozmaq;

4.6. Zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;

4.7. Başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

4.8. Nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək.

**Diqqət!**

4.9. Belə hallar aşkar olunarsa, habelə imtahandan sonra köçürmə hallarının aşkar edilməsi məqsədilə aparılan araşdırma nəticəsində köçürmə faktı müəyyən edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv edilir.

4.10. Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin keçirilməsi qaydalarının və bu "Yaddaş kitabçası"nın şərtlərinə dair hər hansı bir pozuntuya və saxtakarlığa yol verməsinə görə namizədin imtahan nəticələrinin ləğv olunması və onun

haqqında müvafiq tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

4.11. Əgər Siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin. Nəzarətçi müvafiq tədbir görmədikdə, imtahan rəhbəri və ya Müsabiqə Komissiyasının nümayəndəsinin zala gəlməsini tələb edin.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**

## Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqə üzrə imtahan suallarının hazırlanmasında istifadə olunan normativ hüquqi aktların siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası;
2. “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi haqqında Fərman;
3. “İcra haqqında” Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi haqqında Fərman;
4. “Dövlət icra məmurları haqqında” Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi haqqında Fərman;
5. “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanunu;
6. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;
7. "Vətəndaşların müraciətləri haqqında"

Azərbaycan Respublikasının Qanunu;

8. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda icra qeydləri ilə bağlı müddəalar;

9. Azərbaycan Respublikasının Mülki Məcəlləsində mülki hüquq münasibətlərinin subyektləri, hüquq və fəaliyyət qabiliyyəti, hüquqi şəxsə aidiyyəti olan şəxslər, öhdəliklər üzrə icra müddəti və yeri, məhkəmə qərarına əsasən əmələ gələn tələb, birgə və ya paylı mülkiyyətə tutmanın yönəldilməsi, hərracın təşkili, girov predmetinin satışı, tapşırıq müqaviləsi, veksel üzrə akseptdən və ya ödənişdən imtina, hüquqi şəxslərin yenidən təşkili, ləğvi ilə bağlı müddəalar;

10. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində əsas qaydalar, məhkəmə aktları, arbitraj məhkəməsi, mediasiya, xarici məhkəmələrin qərarları, mülki prosessual fəaliyyət qabiliyyəti, məhkəmə bildirişi, müvəqqəti təminat tədbirləri, məhkəmə qərarlarının qüvvəyə minməsi, apellyasiya şikayəti, məhkəmə qərarına izah verilməsi, icraya möhlət verilməsi, hissə-hissə icra, icraatın dayandırılması və digər aidiyyəti məsələlər

ilə bağlı müddəalar;

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində kredit borclarını ödəməkdən qəsdən yayınma, siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər, məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətləri və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə, hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiq olunmasının əsasları və şərtləri ilə bağlı müddəalar;

12. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində cinayət işi üzrə icraat zamanı əmlak üzərinə həbs qoyulması bağlı müddəalar;

13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində inzibati cərimə, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, ictimai işlər tənbeh növləri, inzibati xəta haqqında iş üzrə icraata başlama, inzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasının təxirə salınması və ya onun icrasına möhlət verilməsi, məhkəmə və digər orqanların qərarlarının

icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi və inzibati cərimə və ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsi, inzibati cərimə, ictimai işlər və inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi ilə bağlı tənbehlərin icrası qaydaları ilə bağlı müddəalar;

14. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar, cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası qaydaları ilə bağlı müddəalar;

15. Azərbaycan Respublikasının Ailə Məcəlləsində uşaqların mənafelərinə toxunan aliment tələbləri ilə bağlı müddəalar;

16. “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanı;

17. “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanı;

18. “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanı;

19. “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanı;

20. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanı;

21. “Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növlərinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.05.2001-ci il tarixli 98 nömrəli Qərarı;

22. “Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.06.2002-ci il tarixli 89 nömrəli Qərarı;

23. “Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydasının və şərtlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.09.2002-ci il tarixli 143 nömrəli Qərarı;

24. “Elektron icra” informasiya sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.10.2021-ci il tarixli 306 nömrəli Qərarı;

25. “İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.01.2025-ci il tarixli 8 nömrəli Qərarı;

26. “Xüsusi icra məmurunun standart haqqının və əlavə icra haqqının hesablanması meyarları və hədlərinin, habelə standart haqq üzrə avansın məbləği”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.12.2025-ci il tarixli 378 nömrəli Qərarı;

27. “Şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının icra və probasiya qurumları tərəfindən tətbiqi qaydaları haqqında Təlimat”ın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 22.04.2013-cü il tarixli 2-N nömrəli Qərarı;

28. “İcra sənədinin icrası ilə bağlı borclunun əmlakının elektron hərracda satılması Qaydası”nın təsdiq edilməsi barədə“” Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 24.10.2024-cü il tarixli 1-N nömrəli Qərarı;

29. “İcra sənədinin icra olunması barədə xüsusi icra məmuruna ünvanlanan ərizənin nümunəsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 28.11.2025-ci il tarixli 3-16/1-KQ/14/2025 nömrəli Qərarı;

# Test imtahanının sual nümunələri

**Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin və məhkəmə orqanlarının səlahiyyətinə aid edilməyən məsələlər hansı qaydada həll edilir?**

A) Azərbaycan Respublikasının Milli Məclisi məsələnin həllinə dair ümumi qaydalar müəyyən edir

B) Məhkəmələr ədalət mühakiməsi prinsiplərinə əsaslanaraq məsələni özləri həll edir

C) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi məsələni həll edir

D) Azərbaycan Respublikasının Prezidenti məsələni icra qaydasında həll edir

**Hansı hallarda icra sənədi üzrə icraat məcburi olaraq dayandırılır?**

A) İcra sənədi üzrə tələbin yönəldildiyi əmlakın həbsdən azad olunması barədə məhkəməyə iddia verildikdə

B) Tələbkar fəaliyyət qabiliyyətini itirdikdə

C) Tələbkar öldükdə, ölmüş və ya xəbərsiz itkin düşmüş hesab edildikdə

D) Məhkəmə tələbkarın iflası barədə məhkəmə icraatına başladıqda

**Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemalar hansıdı?**

A) Leyli və Məcnun, Bəngü-Badə, Söhbətül-əsmar, Fitnə və Rindü-zahid

B) Fitnə, Bəhram Gur, Sultan Səncər, Xeyir və şər, Gülüstani-İrəm

C) Şahnamə, Fitnə, Bəhram Gur, Sultan Səncər, Xeyir və şər,

D) Sirlər xəzinəsi, Xosrov və Şirin, Leyli və Məcnun, Yeddi gözəl və İsgəndərnamə

**Qanunauyğunluğu müəyyənləşdirin və "?" əvəzinə düzgün variantı seçin:**

| | | |
|---|---|---|
| abc | bac | cab |
| cab | cba | bca |
| bca | acb | ? |

A) bab
B) cba
C) abc
D) bac
E) bca

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 noyabr tarixli 351 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin, habelə ilkin icbari hazırlığın və stajın keçirilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 8.1-ci maddəsinin dördüncü cümləsinə və 10.1-ci maddəsinin ikinci cümləsinə əsasən hazırlanmışdır və xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin, habelə ilkin icbari hazırlığın və stajın keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Xüsusi icra məmuru vəzifəsi üçün müsabiqənin elan edilməsi, müraciətlərin qəbulu və onlara baxılma qaydası Qanunun 8.2-ci maddəsinə uyğun olaraq tənzimlənir.

## 2. Müsabiqənin keçirilməsi

2.1. Xüsusi icra məmuru vəzifəsi üzrə vakansiyalar müsabiqə əsasında tutulur. Müsabiqə

test imtahanı (bundan sonra – imtahan) və müsahibə mərhələlərindən ibarətdir.

2.2. Namizədlərlə müsabiqənin keçirilməsi və onun nəticələrinə dair qərar qəbul edilməsi Qanunun 9.1-ci maddəsinə uyğun olaraq yaradılmış Müsabiqə Komissiyası (bundan sonra – Komissiya) tərəfindən həyata keçirilir.

2.3. Müsabiqə xüsusi icra məmuru olmaq istəyən hər bir namizədin bilik səviyyəsinin, ümumi dünyagörüşünün, xüsusi icra məmuru vəzifəsinə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir.

2.4. Müsabiqəyə Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən ali təhsilli şəxslər buraxılırlar.

2.5. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) icra məmurlarının fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumunda xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə və ya dövlət icra məmuru vəzifəsində 3 (üç) ildən az olmayaraq işləmiş şəxslər müsabiqənin test mərhələsindən azad edilirlər.

2.6. Müsabiqənin imtahan mərhələsində iştirak ödənişlidir. Ödənişin məbləği Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən dövlət qulluğuna qəbulla bağlı test imtahanında

iştirak üçün müəyyən edilmiş tariflərə uyğun müəyyən olunur. Namizəd imtahanda iştirak etmədikdə ödəniş geri qaytarılmır.

2.7. İmtahanın keçirilməsinə müvafiq dövlət qurumları cəlb edilə bilər. Beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatlarının, media subyektlərinin nümayəndələri imtahanı müşahidə etməyə dəvət oluna bilərlər.

2.8. İmtahan informasiya texnologiyalarından istifadə etməklə elektron formada keçirilir.

2.9. Komissiya tərəfindən imtahanın təşkilinə və keçirilməsinə məsul olan heyət, onun tərkibi və vəzifələri müəyyən edilir. İmtahanın keçirilməsini təmin etmək məqsədilə imtahan rəhbəri və imtahan nəzarətçiləri təyin olunurlar. İmtahan nəzarətçilərinin sayı auditoriya üzrə 2 (iki) nəfərdən az olmamalıdır.

2.10. İmtahan suallarını və cavablarını konfidensiallıq təmin edilməklə Komissiya hazırlayır. Bu işə mütəxəssislər cəlb edilə bilərlər. Hazırlanmış suallar toplusunda sualların sayı imtahanda istifadə edilə biləcək sualların sayından ən azı 5 (beş) dəfə çox olmalıdır.

2.11. Suallar və düzgün cavablar imtahana ən azı 10 (on) gün qalmış Komissiyanın qapalı iclasında baxılıb təsdiq edilir və zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır.

2.12. İmtahan suallarının hazırlanmasında istifadə edilmiş normativ hüquqi aktlara və digər sənədlərə dair məlumat “Yaddaş kitabçası”, internet və digər vasitələrlə namizədlərə çatdırılır.

2.13. İmtahan 100 sualdan ibarətdir. Onlardan 60 sual xüsusi icra məmurunun fəaliyyətində tətbiq olunan qanunvericiliyi əhatə edir. 40 sual isə namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən etmək məqsədi daşıyır.

2.14. Namizəd suallara kompüterdə yerləşdirilmiş xüsusi proqram təminatı vasitəsilə cavab verir. İmtahanın başlanması vaxtı sualların monitorda göründüyü andan hesablanır.

2.15. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda o, imtahanın nəticələrinə dair arayış əldə edir.

2.16. Texniki səbəblərdən imtahanın davam etdirilməsi mümkün olmadıqda Komissiya tərəfindən müəyyən edilmiş vaxtda imtahanın yenidən keçirilməsi barədə namizədə məlumat verilir.

2.17. İmtahan 3 (üç) saat müddətində fasilə verilmədən keçirilir.

2.18. İmtahanda xüsusi icra məmurunun fəaliyyətində tətbiq olunan qanunvericiliyə dair hər

bir sualın düzgün cavabı 1 balla (cəmi 60 mümkün bal), namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən edən hər bir sualın düzgün cavabı 0,5 balla (cəmi 20 mümkün bal) qiymətləndirilir.

2.19. Səhv cavablar və ya sualın cavabsız qoyulması "0" bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir.

2.20. İmtahanda 55 və daha artıq bal toplamış namizədlər müsahibə mərhələsinə buraxılırlar.

2.21. Namizəd imtahanın keçirilmə qaydalarını pozduqda, o cümlədən saxta sənədlər təqdim etdikdə, köçürməyə yol verdikdə, imtahana rabitə vasitəsi və ya digər qadağan edilmiş əşyalar gətirdikdə, imtahana öz yerinə başqasını göndərdikdə, yaxud imtahan qaydalarına zidd hərəkətlərə və digər saxtakarlıqlara yol verdikdə imtahanın rəhbəri və nəzarətçi bu barədə akt tərtib edir və namizəd imtahandan kənarlaşdırılır. Onun imtahan nəticələri Komissiya tərəfindən ləğv edilir.

2.22. İmtahanın başa çatması protokolla rəsmiləşdirilir. Protokol nəzarətçilər və 2 (iki) nəfər namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir, imtahan rəhbərinə təqdim edilir. İmtahan rəhbəri möhürlənmiş zərfi aidiyyəti üzrə təqdim edir.

2.23. İmtahanın nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona məlum olduğu gündən 5 (beş) iş günü müddətində Komissiyaya müraciət edə bilər. Komissiya aidiyyəti mütəxəssislərlə birlikdə namizədin şikayətini araşdırır və 3 (üç) iş günü müddətində ona müvafiq izah verir.

2.24. Araşdırma nəticəsində namizədin keçid bal topladığı müəyyən edilərsə, Komissiya onun müsahibəyə buraxılması məsələsini həll edir.

2.25. Müsahibənin keçirildiyi yer və vaxt barədə namizədlərə Komissiya tərəfindən 7 (yeddi) gün əvvəl məlumat verilir.

2.26. Namizədlə yaxın qohumluq və ya şəxsi münasibətdə olan müsahibə aparan şəxs həmin namizədlə müsahibədə iştirak etmir. Bu əsaslar olduqda namizəd müsahibə başlanmazdan əvvəl müsahibə aparan şəxslərdən hər hansı birinə etiraz edə bilər. Etirazın qəbul və ya rədd edilməsini Komissiyanın sədri müəyyən edir.

2.27. Müsahibə fərdi qaydada və 30 dəqiqəyədək aparılır. Müsahibə zamanı hər namizədə 5 sual verilir və namizədin aşağıdakı xüsusiyyətləri qiymətləndirilir:

2.27.1. xüsusi icra məmurunun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını tətbiq etmək sahəsində biliyi və bacarığı, o cümlədən təhsil

səviyyəsi, peşə nailiyyətləri, xarici dilləri bilməsi, kompüterdə işləmək bacarığı və səviyyəsi;

2.27.2. özünü təqdimetmə bacarığı, ümumi dünyagörüşü, ünsiyyət bacarıqları, təmkinliliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti;

2.27.3. analitik düşünmək qabiliyyəti, hadisələri obyektiv qiymətləndirmək və problemlərin həlli ilə bağlı qərar çıxarmaq bacarığı.

2.28. Müsahibə zamanı namizədin verdiyi hər cavab Komissiyanın hər bir üzvü tərəfindən 0, 1, 2, 3, 4 və 5 ballardan biri ilə qiymətləndirilir və Komissiya üzvlərinin verdiyi qiymətlər toplanaraq müsahibədə iştirak edən Komissiya üzvlərinin sayına bölünür.

2.29. Müsahibənin nəticəsi üzrə ən çox 25 bal toplamaq mümkündür.

2.30. Komissiya üzvləri arasında müsahibə ilə bağlı fikir mübadiləsi keçirilə bilər. Suallar və cavablar Komissiyanın üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilərək Komissiyanın sədrinə təqdim edilir.

2.31. Müsahibənin nəticələri üzrə namizəd 15 və daha çox bal topladıqda müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

2.32. Müsahibənin gedişi protokolla rəsmiləşdirilir. Protokolda namizədə verilmiş bütün suallar və onların cavabları qeyd edilir.

2.33. İmtahandan keçid balı toplamış, lakin təhsilini davam etdirməsi və ya digər üzrlü səbəblərlə əlaqədar müsahibədə iştirak etməmiş şəxslərlə müsahibə onlar təhsilini başa vurduqdan və ya digər hallar aradan qalxdıqdan sonra (hər bir halda imtahanın başa çatmasından ən çoxu 1 (bir) il müddətində) müraciətlərinə əsasən keçirilir.

## 3. İlkin icbari hazırlıq və staj

3.1. Namizədlər müsabiqənin yekunları üzrə topladıqları ümumi ballara uyğun sıralanırlar. Toplanmış balların miqdarı eyni olduqda, ardıcıl olaraq elmi dərəcəsi olanlara, ali təhsil pilləsinin daha yüksək səviyyəsini bitirənlərə, təhsil səviyyəsi eyni olduqda isə təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə və xarici dil bilənlərə üstünlük verilir. Həmin sıralamaya əsasən namizədlər xüsusi icra məmuru vəzifələri üzrə mövcud vakansiyaların sayına uyğun olaraq ilkin icbari hazırlıq və stajkeçməyə cəlb olunurlar. Digər namizədlər isə 2 (iki) il müddətində ehtiyat siyahıda saxlanılır və yeni vakansiyalar yarandıqda ilkin icbari hazırlıq və stajkeçməyə cəlb olunurlar.

3.2. Namizədlər xüsusi icra məmuru qismində fəaliyyət göstərmək üçün müqavilə əsasında Ədliyyə Akademiyasında (bundan sonra –

Akademiya) azı 3 (üç) aylıq ilkin icbari hazırlığa və stajkeçməyə cəlb olunurlar.

3.3. İlkin icbari hazırlıq və stajkeçmə Xüsusi İcra Məmurlarının Palatasının (bundan sonra – Palata) iştirakı ilə ödənişli əsasla təşkil edilir.

3.4. Nazirliyin icra məmurlarının fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumunda xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə və ya dövlət icra məmuru vəzifəsində 3 (üç) ildən az olmayaraq işləmiş şəxslər ofisin idarə edilməsi və mühasibatlıq təlimləri istisna olmaqla, ilkin icbari hazırlıqdan və staj keçməkdən azad edilirlər.

3.5. İlkin icbari hazırlıq zamanı namizədlərə xüsusi icra məmurlarının fəaliyyəti ilə bağlı zəruri olan hüquqi biliklər və fəaliyyətinin digər nəzəri əsasları tədris edilir, o cümlədən ofisin idarə edilməsi və mühasibatlıq təlimləri keçirilir, habelə xüsusi icra məmurunun fəaliyyətində tələb olunan bacarıq və vərdişlər öyrədilir. Stajkeçmə zamanı nəzəri biliklərin, öyrədilmiş bacarıq və vərdişlərin real şəraitdə tətbiq olunması təcrübəsi formalaşdırılır.

3.6. İlkin icbari hazırlıq və staj keçmənin müddəti Akademiya tərəfindən Palatanın təklifləri nəzərə alınmaqla müəyyən edilir.

3.7. İlkin icbari hazırlıq üzrə tədris proqramı və stajkeçmə planı Palatanın təklifləri nəzərə alınmaqla Akademiyanın Elmi Şurası tərəfindən

təsdiq olunur. Stajkeçmə planında stajkeçmənin müddəti, staj müddətində görüləcək tədbirlər, namizədin yerinə yetirməli olduğu işlər, habelə dövri hesabatların təqdim edilməsi ilə bağlı məlumatlar göstərilir.

3.8. İlkin icbari hazırlığın sonunda Akademiyanın Nizamnaməsinə uyğun olaraq qiymətləndirilmə aparılır. Qiymətləndirmədən keçən şəxslər stajkeçməyə cəlb olunurlar.

3.9. Stajkeçmə müddətində namizədin fəaliyyətinin təşkil edilməsi, praktik bacarıq və vərdişlərinin formalaşmasına kömək məqsədilə xüsusi icra məmuruna təhkim edilir. Bir xüsusi icra məmuruna eyni vaxtda ikidən artıq namizəd təhkim edilə bilməz.

3.10. Namizəd staj müddətində Akademiyaya dövri hesabatlar təqdim edir. Həmin hesabatlar üzrə namizədə stajkeçmə ilə bağlı tövsiyələr verilə bilər.

3.11. Staj müddəti bitdikdən sonra dövri hesabatlar və stajor rəhbərinin mülahizəsi nəzərə alınmaqla Akademiya tərəfindən Palata ilə birlikdə staj planının yerinə yetirilməsi ilə bağlı yekun rəy tərtib edilir və Nazirliyə təqdim edilir.

3.12. Stajkeçmə planını yerinə yetirmiş şəxslərə Nazirlik tərəfindən şəhadətnamə verilir.

3.13. Şəxs öz ərizəsi ilə, ilkin icbari hazırlıq və stajkeçmə qaydalarını pozduqda, sonradan xüsusi

icra məmuru vəzifəsinə uyğun olmadığı aşkar edildikdə, habelə ilkin icbari hazırlıq və stajkeçmə üçün müəyyən edilmiş ödənişi ödəmədikdə və müqavilənin digər şərtlərini pozduqda Akademiya tərəfindən ilkin icbari hazırlıq və stajkeçmədən kənarlaşdırılır.

## 4. Yekun müddəalar

4.1. Komissiyanın qərarlarından, habelə ilkin icbari hazırlıq və stajın yekunları üzrə qəbul edilmiş qərarlardan razı olmayan şəxslər inzibati qaydada və ya məhkəməyə müraciət edə bilərlər.

4.2. Xüsusi icra məmurları fəaliyyətə başlayana qədər namizədlər stajkeçmə dövründə dövlət icra məmuruna təhkim edilirlər.

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 2025-ci il 28 noyabr tarixli 3-16/1-KQ/8/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

# Xüsusi icra məmuru vəzifəsi üçün müsabiqənin elan edilməsi, müraciətlərin qəbulu və onlara baxılma

# Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonar – Qanun) 8.2-ci maddəsinə əsasən hazırlanmışdır və xüsusi icra məmuru vəzifəsi üçün müsabiqənin elan edilməsi, müraciətlərin qəbulu və onlara baxılma qaydasını müəyyən edir.

1.2. Xüsusi icra məmuru vəzifəsi üçün müsabiqənin elan edilməsi, müraciətlərin qəbulu və onlara baxılması Qanunun 9.1-ci maddəsinə uyğun olaraq yaradılmış Müsabiqə Komissiyası tərəfindən həyata keçirilir.

## 2. Müsabiqənin elan edilməsi və müraciətlərin qəbulu

2.1. Xüsusi icra məmuru vəzifəsi üçün vakansiyalar olduqda müraciət etmək üçün son müddət göstərilməklə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin, Xüsusi İcra Məmurlarının Palatasının rəsmi internet səhifələrində və digər mediada elan verilir.

2.2. Xüsusi icra məmuru vəzifəsinə qəbul olunmaq arzusunda olan və Qanunun 7-ci maddəsinə uyğun olaraq xüsusi icra məmuruna dair tələblərə cavab verən şəxslər müsabiqədə iştirak etmək üçün bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun tərtib edilmiş formada (elektron və ya kağız daşıyıcılar vasitəsilə) Müsabiqə Komissiyasına müraciət edirlər.

2.3. Müsabiqənin test imtahanı (bundan sonra – imtahan) mərhələsindən müvəffəqiyyətlə keçən və müsahibədə iştirak etmək istəyən şəxslər bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun tərtib edilmiş ərizə ilə birlikdə aşağıdakı sənədləri 15 iş günü ərzində Müsabiqə Komissiyasına təqdim etməlidir:

2.3.1. şəxsiyyət vəsiqəsinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən əldə edilmiş surəti;

2.3.2. kadrların uçotunun şəxsi vərəqəsi;

2.3.3. tərcümeyi-hal;

2.3.4. ali təhsil haqqında dövlət sənədinin (diplomun) notariat qaydasında təsdiq olunmuş surəti (xarici ölkədə təhsil almış namizədin ali təhsil haqqında dövlət sənədinə (diplomuna) müvafiq xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının peşə tanınması barədə şəhadətnamənin surəti əlavə olunur);

2.3.5. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının notariat qaydasında və ya işəgötürən tərəfindən təsdiq edilmiş surəti;

2.3.6. sağlamlıq barədə tibbi arayış;

2.3.7. hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumundan həqiqi hərbi xidmət keçmə və qeydiyyat haqqında, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ vardırsa və ya azad edilmişdirsə müvafiq təsdiqedici sənəd;

2.3.8. 4x6 sm ölçüdə 4 ədəd, 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.

2.4. Müsahibədə iştirak etmək üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər namizəddən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.

2.5. Müraciət edən şəxs özünü xarakterizə edən başqa sənədləri də təqdim edə bilər.

## 3. Müraciətlərə baxılması qaydası

3.1. Bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq müraciət etmiş namizədlər ümumi siyahıya salınır və hər bir namizədə müsabiqə və onun keçirilməsi ilə bağlı məlumatları özündə əks etdirən "Yaddaş kitabçası" verilir.

3.2. Anonimliyin təmin edilməsi məqsədilə siyahıya salınmış hər bir namizədə rəqəmlərlə ifadə olunan şəxsi eyniləşdirmə kodu verilir. İmtahanda yalnız şəxsi eyniləşdirmə kodundan istifadə olunur.

3.3. İmtahana azı 2 gün qalmış hər bir namizədə onun fotoşəkli olan buraxılış vərəqəsi verilir. İmtahanın keçiriləcəyi barədə elanda buraxılış vərəqəsinin veriləcəyi tarixə dair məlumat göstərilməlidir.

3.4. Buraxılış vərəqəsində namizədin şəxsi eyniləşdirmə kodu, imtahanın keçirildiyi ünvan, tarix, saat, auditoriya, auditoriyada sıra və yer nömrəsi göstərilir.

3.5. İmtahandan müvəffəqiyyətlə keçən və müsahibədə iştirak etmək istəyən şəxslərin təqdim etdiyi sənədlərin tamlığı, onların namizədin ərizəsində əks olunan məlumatlara uyğunluğu müəyyən edildikdən sonra ərizələrin qeydiyyatı aparılır.

3.6. Natamam və ya bu Qaydaya uyğun olmayan sənədlər qəbul edilmir. Sənədlərdə sonradan çatışmazlıqlar aşkar edildikdə isə bu barədə namizədə sənədlərin təqdim edildiyi gündən 5 iş günü müddətində bildirilir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər onların qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim oluna bilər.

3.7. Sənədlər onların qəbulu üçün müəyyən edilmiş müddətin bitməsinə 5 iş günü və daha az müddət qalmış təqdim edildikdə aşkar olunmuş çatışmazlıqlar barədə namizədə məlumat verildiyi

gündən 5 iş günü ərzində çatışmazlıqlar aradan qaldırılmalıdır.

3.8. Bu Qaydanın 3.7-ci bəndi nəzərə alınmaqla, sənədlərin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər (göstərilən müddət ərzində poçta verilmiş sənədlər istisna olmaqla) qəbul edilmir.

3.9. Təqdim edilmiş sənədlər Müsabiqə Komissiyası tərəfindən yoxlanılır və yoxlamanın nəticəsinə uyğun olaraq namizədlər müsahibəyə buraxılır.

“Xüsusi icra məmuru vəzifəsi üçün
müsabiqənin elan edilməsi,
müraciətlərin qəbulu və onlara
baxılma qaydası”na
Əlavə № 1

**Azərbaycan Respublikası vətəndaşının xüsusi icra məmuru vəzifəsinə qəbulla bağlı müsabiqədə iştirak etməsi üçün müraciətinin forması**

*FOTO (3x4)*

**1. Vətəndaş haqqında məlumat:**

1.1. Adı ___________ 1.2. Soyadı __________ 1.3. Atasının adı _______

1.4. Cinsi: Kişi ☐ 1.5. Doğulduğu tarix (gün, ay, il) ________________

Qadın ☐ 1.6. Doğulduğu yer (ölkə, şəhər (rayon), kənd) ______

**2. Vətəndaşın şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat:**

2.1. Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi
_____________________________________

2.2. Şəxsiyyət vəsiqəsinin verildiyi tarix (gün, ay, il) ______________________

2.3. Şəxsiyyət vəsiqəsini verən orqanın adı
_____________________________________

2.4. FİN (fərdi identifikasiya nömrəsi)
_______________________________

**3. Vətəndaşla əlaqə vasitələri haqqında məlumat:**

3.1. Qeydiyyatda olduğu ünvan (şəhər, rayon, kənd və küçə göstərilməklə) ________________
______________________________________________________________________________

3.2. Faktiki yaşadığı ünvan (vətəndaş qeydiyyatda olduğu ünvanda yaşamırsa) _____________
______________________________________________________________________________

3.3. Elektron poçt ünvanı
______________________________________________________________________________

3.4. Mobil telefonu (operatorun kodu göstərilməklə)
______________________________________________________________________________

3.5. Ev telefonu (şəhər (rayon) kodu göstərilməklə)
______________________________________________________________________________

3.6. İş telefonu (şəhər (rayon) kodu göstərilməklə)
______________________________________________________________________________

**4. Vətəndaşın xüsusi icra məmuru vəzifəsinə qəbulla bağlı müsabiqədə iştirakının mümkün olub-olmaması haqqında məlumat:**

4.1. Ali təhsilə maliksinizmi? Bəli ☐ Xeyr ☐

4.2. İkili vətəndaşlığınız varmı? Bəli ☐ Xeyr ☐

4.3. Digər dövlətlər qarşısında öhdəliyiniz varmı? Bəli ☐ Xeyr ☐

| | | |
|---|---|---|
| 4.4. Din xadimisinizmi? | Bəli ☐ | Xeyr ☐ |
| 4.5. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmisinizmi? | Bəli ☐ | Xeyr ☐ |
| 4.6. Barənizdə cinayət işi olmuşdurmu? | Bəli ☐ | Xeyr ☐ |
| 4.7. Cinayət törətməyə görə əvvəllər məhkum olunmusunuzmu? | Bəli ☐ | Xeyr ☐ |
| 4.8. Pul öhdəlikləri barədə yerinə yetirmədiyiniz məhkəmə qərarı varmı? | Bəli ☐ | Xeyr ☐ |
| 4.9. Barənizdə tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı varmı? | Bəli ☐ | Xeyr ☐ |
| 4.10. Vəzifənin icrası ilə bağlı kobud pozuntulara görə hüquq mühafizə orqanlarından xaric edilmisinizmi, eləcə də intizam tənbehi qaydasında hakimlik səlahiyyətlərinə, dövlət qulluğuna (o cümlədən dövlət qulluğunun xüsusi növünə), vəkillik, notariat, xüsusi icra məmuru fəaliyyətinə xitam verilmişdirmi? | Bəli ☐ | Xeyr ☐ |
| 4.11. Vəzifənin icrası ilə bağlı əvvəllər yol verdiyiniz kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə son 5 (beş) il müddətində xidməti uyğunsuzluğa və ya məhkəmənin hökmü ilə və ya intizam qaydasında hərbi rütbədən məhrum edildiyinizə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılmısınızmı? | Bəli ☐ | Xeyr ☐ |

**Məndə olan tibbi sənədlərə görə fiziki və əqli cəhətdən xüsusi icra məmuru vəzifəsində işləməyə yararlıyam**

İmza ____________

**5. Vətəndaşın əmək fəaliyyəti haqqında məlumat:**

5.1. Əmək fəaliyyəti: İndiyədək işləməmişəm ☐ Hazırda işləmirəm ☐ İşləyirəm ☐

5.2. İşləyirsinizsə, hazırkı iş yeriniz və vəzifəniz ______________________________________

______________________________________________________________________________

5.3. Ümumi iş stajınız (müraciətin doldurulduğu tarixə) _____ il __________ ay ______ gün

**6. Vətəndaşın təhsili haqqında məlumat:**

6.1. Ali təhsilin səviyyəsi: Bakalavriat ☐ Magistratura ☐ Doktorantura ☐ Digər ☐

6.1.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il __________________________

______________________________________________________________________________

6.1.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) _____________

______________________________________________________________________________

6.1.3. Diplomun seriyası və nömrəsi ___________________________

6.1.4. Diplomun verildiyi tarix (gün, ay, il) _________________________

Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi halda müvafiq xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının peşə tanınması barədə şəhadətnamə üzrə:

6.1.5. Şəhadətnaməsinin nömrəsi ___________ 6.1.6. Verildiyi tarix (gün, ay, il) _____________

6.2. Ali təhsilin səviyyəsi: Bakalavriat ☐ Magistratura ☐ Doktorantura ☐ Digər ☐

6.2.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il ____________________________

______________________________________________________________________________

6.2.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) ____________

______________________________________________________________________________

6.2.3. Diplomun seriyası və nömrəsi ______________________ 6.2.4. Diplomun verildiyi tarix (gün, ay, il) ______________________

Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi halda müvafiq xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının peşə tanınması barədə şəhadətnamə üzrə:

6.2.5. Şəhadətnaməsinin nömrəsi _________ 6.2.6. Verildiyi tarix (gün, ay, il) _____________

6.3. Ali təhsilin səviyyəsi: Bakalavriat ☐ Magistratura ☐ Doktorantura ☐ Digər ☐

6.3.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il ____________________________

______________________________________________________________________________

6.3.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) ____________

______________________________________________________________________________

6.3.3. Diplomun seriyası və nömrəsi ___________________________ 6.3.4. Diplomun verildiyi tarix (gün, ay, il) ___________________

Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi halda müvafiq xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının peşə tanınması barədə şəhadətnamə üzrə:

6.3.5. Şəhadətnaməsinin nömrəsi _________ 6.3.6. Verildiyi tarix (gün, ay, il) ____________

**Digər kadr sənədlərimin test imtahanından sonra qanunvericiliyə müvafiq olaraq toplanılacağı və yoxlanılacağı, bu zaman xüsusi icra məmuru vəzifəsinə qəbul olunmağımı istisna edən hallar aşkar edilərsə müsabiqədən kənarlaşdırılacağım, həmçinin müraciətdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsinin vəzifəyə qəbul olunmamağım və ya fəaliyyətimə xitam verilməsi üçün əsas olması barədə məlumatlıyam.**

İmza _______________

**Müraciətdə göstərilən məlumatların doğruluğunu təsdiq edirəm**

Müraciətin doldurulduğu tarix (gün, ay, il) ____________________ İmza _______________

**BU HİSSƏ MÜRACİƏTİ QEYDƏ ALAN VƏZİFƏLİ ŞƏXS TƏRƏFİNDƏN DOLDURULUR**

**Müraciəti qəbul edən şəxsin vəzifəsi, adı və soyadı**

_________________________________________________________________

**Müraciətin təqdim edildiyi tarix ___________** **İmzası _______________**

**Müraciətin doldurulması ilə bağlı qeydlər:**

1. Bu Formanın aidiyyəti hissə, bənd və ya yarımbəndləri mütləq doldurulmalıdır. Əks təqdirdə müraciətiniz qəbul olunmayacaqdır.

2. 6-cı hissə doldurularkən bakalavriat, magistratura və doktorantura təhsil səviyyələrinin ardıcıllığı gözlənilməlidir. Digər ali təhsil səviyyəsini bitirmişlər və s. "Digər" qrafasını seçməlidir. "Digər" qrafası seçildiyi halda "Diplom üzrə ixtisasın şifri və adı" yarımbəndi doldurularkən vətəndaşın təhsil səviyyəsi də qeyd edilməlidir. Misal üçün: HS130100-hüquqşünaslıq, ali təhsil.

**Qeyd:** Elektron daşıyıcı vasitəsilə göndərilən müraciətin "Müraciətdə göstərilən məlumatların doğruluğunu təsdiq edirəm" bölməsində yalnız göstərilən məlumatların doğruluğunun təsdiqi üçün müvafiq düymə və müraciətin doldurulduğu tarix əks olunur və müraciəti qeydə alan vəzifəli şəxs tərəfindən doldurulan hissə nəzərdə tutulmur.

“Xüsusi icra məmuru vəzifəsi üçün
müsabiqənin elan edilməsi, müraciətlərin
qəbulu və onlara baxılma qaydası”na
Əlavə № 2

Müsabiqə Komissiyasının sədri
____________________________________________
____________________________________________
____________________________________________
____________________________________________
ünvanda yaşayan
____________________________________________
(soyadı, adı, atasının adı)
_________________________________ tərəfindən

**Ə R İ Z Ə**

Azərbaycan Respublikasının xüsusi icra məmuru vəzifəsinə qəbul olunmaq üçün müsahibəyə buraxılmağımı xahiş edirəm.

_______________________________________________________ doğulmuşam
(gün, ay, il, doğulduğu yer)

Ali ________________təhsilə malikəm, _________________________________
(hansı)
____________________________________________________________________

____________________________________________________________________
(hansı ali təhsil müəssisəsini, nə vaxt, hansı ixtisas üzrə bitirmişdir, diplomun seriyası və nömrəsi)

Hazırda____________________________________________________________
(işlədiyi idarənin adı və tutduğu vəzifə)
__________________________________________________________işləyirəm.

Əlavə bildirirəm ki, Azərbaycan Respublikasının vətəndaşıyam qanunvericiliklə xüsusi icra məmuru kimi fəaliyyət göstərməyimə mane ola hallar yoxdur.

Xüsusi icra məmuru vəzifəsinə qəbul olacağım halda heç bir seçkili v ya digər təyinatlı vəzifələr tutmamağı, elmi, pedaqoji və yaradıcılı fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödəniş fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul olmamağı, siyasi partiyay üzv olmamağı öhdəmə götürürəm.

Xarici dilləri (_____________________________) bilirəm (bilmirəm),
(hansıları) (üstündən xətt çəkilməli)

malikəm (malik deyiləm).
(üstündən xətt çəkilməli)

İmza ____________________

"_____" __________ 20___ il
(tarix)